**İlqar Vaqif oğlu Sadıqov**
**iqtisad üzrə fəlsəfə doktoru**
**Bakı Dövlət Universiteti, müəllim**
**E-mail: sadigov.ilgar1975@gmail.com**
**UOT: 336.77.06722; JEL: G10.**

# Azərbaycanda qeyri-neft sektorunun investisiya cəlbediciliyi

***Xülasə***

*Tədqiqatın məqsədi - qeyri-neft sektorunun inkişafı və onun investisiya cəlbediciliyinin müəyyən edilməsidir. Qeyri-neft sektorunun inkişafı ilə bağlı ölkədə həyata keçiirlən islhatlar və onun nəticələri məqalədə qiymətləndiirlmişdir. Tədqiqatın metodologiyası olaraq əsasən qeyri-neft sektorunun inkişafı ilə bağlı qəbul olunan hüquqi və strateji sənədlər götürülmüşdür. Tədqiqatın nəticələri qeyri-neft sektorunun müasir və pespektiv inkişafının müəyyən olunmasında önəmli rol oynaya bilər. Tədqiqatın orjinallığı ondan ibartədir ki, qeyri-neft sektorunun inkişafına və investisiya cəlbediciliyi məsələlərinə müasir tələblər nəzərə alınmaqla baxılmış və bu baxımdan fikirlər irəli sürülmüşdür.*

***Açar sözlər**: qeyri-neft sektoru, emal və mədənçıxarma sənayesi, stateji sənədlər, investisiya cəlbediciliyi*

## Problemin qoyuluşu

Azərbaycanın davamlı inkişafının təmin olunmasında qeyri-neft sektoru artıq mühüm təsir amili kimi çıxış edir və bu sahələrə olan diqqət dövlət səviyyəsində də yüksəlməkdədir. Ölkəyə daxil olan neft gəlirləri hesabına son on ildə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı kimi mühüm tədbirlər həyata keçirilməkdədir. Həmçinin, qeyri-neft sektorunun inkişafına yönələn proqram və konseptual sənədlərin qəbulu da öz əhəmiyyətliliyi ilə çıxış edir. Tədqiqatlar göstərir ki, dünya ölkələrində davam edən maliyyə böhranının Azərbaycana təsiri ciddi nəzərə çarpmasa da, lakin neft gəlirlərinin aslılığının aradan qaldırılması, qeyri-neft sektoru və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi siyasəti Azərbaycanın müasir və perspektiv inkişaf hədəflərini təşkil etməkdədir. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası"nda və digər bu yönümlü sənədlərdə qeyri-neft sektorunun yaxın və perspektiv inkişaf üfüqləri artıq konkretləşdirməkdədir. Azərbaycanda sənayenin inkişafı ilə bağlı qəbul olunan dövlət proqramı bu sektorun müasir tələblər baxımından təşkilinə də səbəb olmaqdadır. Digər tərəfdən, son dövrlərdə icra edilən strateji yol xəritələrlərində qeyri-neft sektorunun inkişafı üçün əsaslandırılmış hədəflər müəyyən olunmuşdur. Müasir dünyada iqtisadiyyatın inkişafında baş verən səngimələr və tərəddüdlər qeyri-neft sektorunun və sənayesinin davamlı təkmilləşməsini gündəmə gətirməkdədir. Əksər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr iqtisadi tənzimləmə mexanizmlərini təkmilləşdirməklə sənaye sektoruna dəstək göstərməkdədirlər. Belə ki, yeni bazar münasibətlərinə qədəm qoyan Azərbaycan üçün bu amil daha ciddiliyi ilə çıxış edir və ölkənin qeyri-neft sektorunun inkişafı belə yanaşmadan önəmli şəkildə asılıdır. Qeyri-neft sektorunun müasir tələblər baxımdan inkişaf bu sahəyə olan investisiya-kapital qoyuluşları sahəsində daha səmərəli siyasət yeridilməsini, bu sahələrin daxili və xarici bazarlara çıxışı üçün əlverişli dəstək tədbirlərinin artırılmasını aktuallaşdırmaqdadır. Məhz belə dəstək tədbirlərinin səmərəli investisiya siyasəti üzərində qurulması, bu sahələrdə müasir texnologiyaların tətbiqinə, innovasiyaların təşviqinə əsaslı şəkildə səbəb ola bilər. Belə mühüm yanaşmalar və baxışlar dissretasiya işinin aktuallığını artırır və sahədə olan araşdırma və tədqiqatların daha geniş müstəvidə aparılmasına əsaslandırır.

**Qlobal iqtisadiyyatda investisiya qoyuluşlarının inkişaf meylləri**

Qlobal iqtisadi inkişafda son dövrlərdə investisiya yatırımları heç də müsbət inkişaf meylliliyi ilə müşahidə olunmamışdır. Bu amildə COVID-19 pandemiyasının təsirləri də az olmamışdır. Qeyd edilməlidir ki, 2020-ci ildə birbaşa xarici investisiya qoyluşlarının həcmi əvvəlki dövr ilə müqayisədə 35% azalmaqla, 1 trilyon ABŞ dolları səviyyəsinə enmişdir [4;5;18; 19]. Son dövrlərdəki iqtisadi, siyasi və digər ciddi problemlər bir çox ölkələrdə milli iqtisadi inkişaf proqramlarının icrasında səngimələr yaratmış, çox saylı investisiya lahiyyələrinin icrasının təxirə salınmasına səbəb olmuşşdur. İnkişaf etmiş ölkələrdə birbaşa xarici investisiya qoyluşlarının həcmi 2021-ci ildə 58% azalma ilə müşahidə edilmişdir [1;2;16; 19]. Belə vəziyyət həm də transmilli şirkətlərin və əksər ölkələrin maliyyə institutlarının xarici investisiya qoyluşlarındakı maraqlarının dəyişməsi kimi mühüm amillə də bağlı olmuşdur. Tədqiqatlar göstərir ki, inkişaf etməkdə olan ölkələrdə birbaşa xarici investisiyaların həcmi son beş ildə 8% azalmışdır. Belə azalmanın inkişaf etmiş ölkələr ilə müqayisəsində yüksək olmamasının əsas səbəblərindən biri - Asiya ölkələrinə olan investisiya axının davamlı artması baş verməsi ilə bağlıdır. Son dövrlərin nəticələri göstərir ki, qlobal səviyyədə birbaşa xarici investisiya qoyluşlarının 60%-i məhz inkişaf etməkədə olan, əsasən də Asiya ölkələrinin payına düşür [15;16; 19]. Həmin ölkələrin investisiya qəbulu üçün yaratdığı mühit, işçi qüvvəsinin nisbətən ucuz olması və istehsalların müxtəlif növlərinin burada təşkilinin əlverişliliyi belə yatırımların dayanıqlılığına öz təsirlərini göstərir. Lakin, COVID-19 pandemiyasının təsirləri Asiya ölkələrində də öünü göstərmiş, həmin ölkələrdə yeni investisiyaların həcminin 42% azalması ilə müşahidə edilmişdir. Həmçinin, pandemiyanın təsirləri nəticəsində inkişaf etməkdə olan ölkələrdə infrastruktur üzrə layihələrin maliyyələşdirilmə əməliyyatların sayı 14% azalası ilə diqqəti cəlb etmişdir. Bununla yanaşı, inkişaf etmiş ölkələrdə yeni subyektlərə yönəldilən investisiya yatırımlarının həcmi - 19%, beynəlxalq investisiyaların səviyyəsi isə - 8% artmışdır [2;17; 19].

İnvestisiyaların cəlbi və yatırımları baxımından son on illik təcürbə göstərir ki, inkişaf etməkdə olan ölkələrdəki durum inkişaf etmiş ölkələr ilə müqayisədə daha yaxşıdır. Lakin, COVID-19 pandemiyasının təzadları bu ölkələrdəki investisiya mühitinə və cəlbinə də öz neqativ təsirlərini göstərmişdir. Bu amil xüsusilə də birbaşa xarici investisiya axınlarında aydın nəzərə çarpmışdır. Birbaşa xarici investisiya axınlarının zəifləməsi inkişaf etməkdə olaan regionlar kimi Latın Amerikasında daha çox müşahidə edilmişdir. Xüsusilə də 2020-ci ildə əvvəlki dövrlər ilə müqayisədə Latın Amerikası ölkələrində birbaşa xarici investisiya yatırımlarının həcmi 45%, Karib hövzəsi və Afrika ölkələrində isə 16% azalmışdır. Bununla müqayisədə Asiya ölkələrində birbaşa xarici investisiya qoyluşlarında 4%-lik artım meyili nəzərə çarpmışdır. Avropada da son bir neçə ildə müxtəlif növlü investisiya qoyluşlarının həcmi - əvvəlki dövrlər ilə müqayisədə 80%, Şimali Amerikada isə 42% azalması ilə diqqəti cəlb etmişdir [23; 24; 25]. Müvafiq dövrdə pandemiyanın fəsadları struktur baxımından zəif olan və həssas iqtisadiyyatlı ölkələrdə birbaşa xarici və daxili investisiya qoyluşlarının azalması ilə özünü göstərmişdir. Əlxəsus da, inkişaf etmiş əksər ölkələrdə müxtəlif növlü investisiya yatırımlarının azalması yeni yaradılan firma və şirkətlərin sayının azalmasına və əhəmiyyət kəsb edən lahiyyələrin icrasının məhdudlaşmasına səbəb olmuşdur.

İnkişaf etmiş ölkələrdə fəaliyyət göstərən xarici şirkətlərin 2020-ci ildə investisiya qoyluşlarının həcmi 56% azalmaqla, 347 milyard ABŞ dolları səviyyəsinə düşmüşdür. Qeyd olunmalıdır ki, bu göstərici 1996-cı ildən başlayaraq ən aşağı səviyyə kimi qiymətləndirilməkdədir. Qlobal səviyyədə diqqət yetirdikdə birbaşa xarici investisiyaların axınlarında 47%-lik azalma baş vermişdir [23; 24; 25]. Qlobal inkişaf dünyada birbaşa xarici

investisiya qoyluşlrında daa öz təsirlərini göstərməkdədir. Belə ki, 2015-ci il ilə müqayisədə 2018-ci ildə birbaşa xarici investisiya qoyluşlarının həcmi 1,6 dəfə azalmaqla, 1,3 trilyard ABŞ dolları səviyyəsinə enmişdir. Lakin, müqayisə edilən dövrdə birbaşa xarici investisiya qoyluşlarından əldə edilən gəlirlərin həcmi 20% artmaqla 1,8 trilyard ABŞ dolları təşkil etmişdir. Belə yatırımların azalması regionlar üzrə fərqli mövqeləri ilə nəzərə çarpmışdır [23; 24; 25]. Əsasən də investisiya yatırımlarının artımında daha çox inkişaf etməkdə olan, o cümlədən Asiya ölkələrinin payı daha yüksəkliliyi ilə nəzərə çarpmışdır. Digər tərəfdən, birbaşa xarici investisiya qoyluşlarından əldə edilən gəlirlərin artımında əvvəlki dövrlərdə yatırılan investisisyalar daha çox əhəmiyyət ksəb etmişdir.

**Qrafik 1.**

**Qlobal dünyada birbaşa xarici investisiyalar üzrə əsas göstəricilər (trilyard ABŞ dolları).**




Mənbə: Qrafik [23; 24; 25] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışıdr.

Birbaşa xarici investisiya qoyluşlarının həcmi 2018-ci ildə Avropa ölkələri üzrə 172 milyard ABŞ dolları səviyyəsində azalması ilə nəzərə çarpmışdır. Bu ölkələrin xarici investisiya üçün cəlbediciliyində müəyyən zəifləmə halları baş vermi, son beş ildə bu amil daha da qabarmışdır və pandemiyanın fəsadları belə durumu kəskinləşdirmişdir. İngiltərədə həmin dövrdə 36% (64 milyard ABŞ dollar) azalmışdır. COVID-19 pandemiyasından hələ əvvəlki 2018-2019-cu illərdə ABŞ yönəldilən xarici investisiyaların həcmi 9% (252 milyard dollar) azalmışdır ki, bu da region və digər ölkələrin özünün investisiya tələbatlarının artması ilə bağlı olmuşdur. Avstraliyaya yönəldilən birbaşa xarici investisiyalarında bu dövrdə həcmində 60 milyard ABŞ dolları səviyyəsində azalma baş vermişdir ki, bu da ölkə üçün son 20 ildə yüksək göstərici hesab olunur. Daxili və xarici investisiya yatırımları sahəsində vəziyyət son beş ildə daha çox Çin, Honkonq, Sinqapur, Hindistan və İndoneziyada öz yüküliliyi ilə diqqəti cəlb etmişdir [23; 24; 25]. Birbaşa xarici investisiya yatırımlarının həcmi 2018-ci ildə MDB ölkələrində də azalma ilə müşahidə olunmuş, belə ki, bu göstərici üzrə əvvəlki dövrlə müqayisədə 36,2% enmişdir (25,6 milyard ABŞ dolları). Xüsusilə də Rusiya, Kazaxstan kimi iri ölkələr artıq bir çox hallarda xarici investorlar üçün ciddi risk mənbəyinə çevrilmişdir. Eyni zamanda, bu regionda artmaqdaa olan geosiyasi risklər son illərdə daha da ciddiliyi ilə müşahidə edilməkdədir. Qeyd edilməlidir ki, 2022-ci ildən başlayaraq Rusiya məkanında xarici investorların və müxtəlif şirkətlərin kütləvi şəkildə getməsi prosesi sürətlənməkdədir. Tədqiatlar göstərir ki, 2017-ci ildə Rusiyaya xarici investisiya qoyluşlarının səviyyəsi 26 milyard ABŞ dolları azalmışdır. Bu göstərici 2018-ci ildə isə 14 milyard ABŞ dolları azalamsı ilə nəzərə çarpmışdır. Birbaşa xarici investisiya qoyluşlarının həcminin

Azərbaycanda da 2018-ci ildə 51% (1,4 milyard ABŞ dolları) aşağı düşməsi meyili özünü göstərmişdir. Azərbaycanda birbaşa xarici investisiya qoyluşlarının əsas hissəsinin neft-qaz sektorunun payına düşməsi nəzərə çarpır. Kazaxstanda birbaşa xarici investisiya yatırımlarının səviyyəsinin 2016-cı ildə artması nəzərə çarpsada, lakin 2018-ci ildə bu göstərici 18,2% (3,8 milyard ABŞ dolları) azalmışdır. Ukaryinada da 2018-ci ildə xarici investisiya qoyluşlarının həcmi 9,5% azalmış (2,3 milyard ABŞ dolları) azalmış, sonrakı illərdə isə ölkədə yaranan müharibə vəziyyəti iqtisadiyyat sahələrinə ümumilikdə investisiya yatırımlarının həcmini əsaslı şəkildə məhdudlaşdırmışdır [20; 21; 22].

**Cədvəl 1.**

**Azərbaycanın birbaşa xarici investisiya cəlbi və yatırımları üzrə əsas tərəfdaşları (2019, milyard ABŞ dolları).**

| Cəlb edilən investisiyalar | Xairici ölkələrə yönəldilən investisiyalar |
|---|---|
| İngiltərə - 6,3 | Türkiyyə - 10,8 |
| Türkiyyə - 5,8 | Gürgüstan – 3 |
| Norveç – 3,1 | İsveçrə - 1,2 |
| İran – 2,5 | İngiltərə - 1 |
| Kipr – 1,9 | ABŞ – 0,6 |

Mənbə: Cədvəl [20; 21; 22] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkəmizə cəlb edilən birbaşa xarici invetisiyların xüsusi çəkisində bir neçə ölkə daha yüksək göstəriciləri ilə fərqlənir. Xüsusilə dəİngiltərə, Türkiyə, Norveç dövlətlərinin bu sahədəki payı daha yüksəkdir və belə investisiyalar "Əsrin müqaviləsi" mərhələsindən başlayaraq enegetika sektoruna olan yatırımlar kimi diqqəti cəlb edir. Digər ölkələr kimi İran və Kiprin də ölkəmizə yatırdığı investisiyalar az deyildir və belə yatırımlar iqtisadiyyatın müxtəlif sahələrinə yönəlmişdir. Azərbaycanın son ildə xarici ölkələrə investisiya yatırımları sahəsindəki mövqeyi artmaqdadır. Belə ki, Türkiyyə, Gürcüstan və İsveçrəyə olan investisiya qoyluşlarının həcmi yüksək hesab olunur və bu yatırımlar daha çox neft-kimya sahələrinə istiqamətlənmişdir. İngiltərə və ABŞ-a yatırılan investisiyalar fərqli iqtisadiyyat və xidmət sferalarına qoyulması ilə nəzərə çarpır [10; 11; 12; 20; 21; 22]. MDB çərçivəsində investisiya münasibətlərinin və əməkdaşlıqlarının genişləndiirlməsinin əhəmiyyətli perspektivləri mövcuddur. Qeyd olunmalıdır ki, dünya miqyasında da qarşılıqlı inteqrasiya proseslərinin dərin inkişafı və birbaşa xarici investisiyaların cəlbi zərurətləri artmaqdadır. Bu amil həm də Rusiya və Azərbaycan iqtisadiyyatlarının islahatında mühüm amil kimi çıxış etməkdədir. Göstərilməlidir ki, keçən əsrin 90-cı illərində bu iki ölkə arasında investisiya əməkdaşlığı praktiki olaraq yox səviyyəsində olmuşdur. Sonradan, əsasən də 2000-ci ildən başlayaraq bu sahədə tədricən əməkdaşlıq sazişləri imzalanmışdır. Belə əməkdaşlıq da iki ölkə arasında investisiya axınlarını 10 dəfə artmasına təsir etmişdir. Artıq 2000-2003-cü illərdə qarşılıqlı investisiya yatırımlarının həcmi 120 milyard ABŞ dollarına çatmışdır. Tədqiqatlar deməyə əsas verir ki, son on ildə birbaşa xarici investisiya qoyluşlarının həcmi bu iki ölkə arasında 20 milyard ABŞ dolları təşkil etmişdir. Lakin, Rusiya belə investisiya yatırımlarının həcmi Türkiyə, Böyük Britaniya, Gürcüstan, Norveç, İran və Kiprin kapital qoyuluşlarından geri qalır [10; 11; 12; 20; 21; 22].

Son araşdırmalar göstərir ki, Rusiyadan Azərbaycana yönələn birbaşa investisiyaların əsas axını yanacaq-energetika sektorunda daha çox cəmləşməkdədir. İqtisadiyyatın sektor üzrə quruluşuna diqqət yetirdikdə isə, Rusiya biznesi üçün Azərbaycanda daha çox maraq kəcb edən sahələr kimi: kənd təsərrüfatı, tikinti, maliyyə bazarı, səhiyyə, məsləhət-konsaltinq xidmətləri və avtomobil istehsal sahələri çıxış edə bilər. Bu iki ölkənin investisiya əməkdaşlığı davamlı şəkildə inkişaf edir və ölkəmizdə Rusiyanın 600-dən çox birgə şirkəti fəaliyyət göstərməkdədir. Son onillik təcürbə göstərir ki, MDB ölkələrinin investisiya və birbaşa xarici investisiya cəlbində qarşılıqlı əmədaşlıq özünü daha çox doğrultmaqdadır və bu sahədə geniş reallaşdırılmalı olan potensiallar vardır. Belə qarşılıqlı və səmərəli birbaşa investisiya prosesinin fəallaşması onların həm öz aralarında, həm də birliyə daxil olmayan dövlətlərlə iqtisadi əməkdaşlıq perspektivləri üçün mühüm əhəmiyyət kəsb edə bilər. Qeyd olunmalıdır ki, müasir mərhələdə də müxtəlif MDB ölkələri arasında birbaşa investisiya sahəsində qarşılıqlı fəaliyyət geniş və lazımı qədər dəstəklənmir. Belə ki, Qırğızıstan, Tacikistan, Türkmənistan və Moldova kimi dövlətlər MDB-nin digər ölkələri ilə investisiya sahəsində zəif əməkdaşlıq nümayiş etdirirlər. Eyni zamanda, Ermənistan, Qırğızıstan, Tacikistan, Moldovada investisiya layihələri və həyata keçirilməsi sahəsində olan maneələr bu ölkələri investorlar cəlbedici etmir [20; 21; 22].

**Azərbaycannın qeyri-neft sektorunda yaradılan inestisiya mühiti və onun cəlbediciliyi**

Azərbaycan iqtisadiyyatının inkişafı investisiya qoyluşlarının da artırılmasını xüsusi zərurətə çevirməkdədir. Xüsusilə də son on ildə ölkəmizdə həyata keçiirlən uğurlu islhatlar milli iqtisadiyyatın investisiya tələbatına daha müasir baxışları əsalandırır. Belə ki, artıq ənənəvi sahələrə investisiya yatırımları ilə yanaşı, perspektivli və müasir iqtisadiyyat sahələrinə də belə qoyluşların artırlması dövlət səviyyəsində qəbul olunan həqiqətlərdən biri hesab olunmaqdadır. Belə yanaşma son dövrlərdə qəbul olunan proqram və strateji sənədlərdə də öz aydın əksini tapmaqdadır [10; 11; 12; 20; 21; 22]. Qeyd etmək lazımdır ki, hazırdadək icra edilən dövlət proqramlarında sahəvi və regional iqtisadi inkişaf və investisiya siyasəti bir vəhdət halında çıxış etmişdir. Milli iqtisadiyyatın orta və uzun müddətli perspektivlərində bu aparıcı xətt saxlanılmaqla yanaşı, innovativ, yeni xidmət sahələrinə investisiya qoyluşları önəmli hesab olunur. Azərbaycanın region və dünya iqtisadiyyatında oynadığı rolun artması, ölkməmizin böyük iqtisadi, təbii və maliyyə potensialının formalaşması xarici investorların da milli iqtisadiyyatımıza olan maraqlarını artırmaqdadır [10; 11; 12; 20; 21; 22]. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ində qarşıdakı on illikdə ölkəmizin qüdrətinin artması ifadə edilir. Yaxın on illikdə iqtisadi inkişafımızda biznes mühitinin daha da sağlamlaşdırılması, özəl sektorun mövqeyinin əhəmiyyətli şəkildə möhkəmlənməsi, işğaldan azad olunan ərazilərimizin sosial-iqtisadi inkişafının təmin edilməsi, insan kapitalının və bilik iqtisadiyyatının inkişafı, yaşıl iqtisadiyyatın formalaşdırılması kimi mühüm müddəalar ön plana keçəcəkdir[10; 11; 12; 20; 21; 22]. Bütün bu kimi önəmli tədbirlərin həyata keçirilməsi investisiya təlbatını artırmaqla, daha əsaslandırılmış investisiya siyasətinin icrasını əsaslandırır. Azərbaycanda son on ildə investisiya clbediciliyi üzrə mühitin yaxşılaşdırılması istiqamətində ciddi tədbirlər həyata keçirilməkdədir. Belə tədbirlərin genişləndirilməsi məqsədilə aparılan islahatlar və icra edilməkdə olan proqram və strategiyalar da öz əhəmiyyətliliyi ilə çıxış edir. Qeyd olunmalıdır ki, bütün bu əməli tədbirlərin nəticəsidir ki, 2010-cı illə müqayisədə 2021-ci ildə ölkəmizin iqtisadiyyatına bütün mənbələr üzrə yatırılan investisiyaların həcmi 1,8 dəfə artmaqla – 25,3 milyard manat təşkil

etmişdir. İqtisadiyyata investisiya qoyluşunda son dövrlərdə daxili və xarici investisiya yatırımlarının payı bərabərləşməsi ilə diqqəti cəlb etməkdədir. Müqayisə edilən dövrdə daxili investisiyaların həcmi – 1,6 dəfə, xarici investisiya qoyluşlarının isə - 1,9 dəfə artmışdır.

**Qrafik 2.**

**İqtisadiyyata yönəldilən investisiyalar (milyard manat)**




Mənbə Qrafiq [10; 11; 12] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır**.**

Azərbaycanda iqtisadiyyatın sahələri baxımından əsas kapitala yatırılan investisiyaların həcmində də artım meyilləri müşahidə edilməkdədir. Belə ki, son on illik dövrə nəzər yetirsək, belə investisiya yatırımlarının daha çox artımı sənaye və tikinti sektorunda müşahidə olunmaqdaqdır. Həmin dövrdə əsas kapitala yatırılan investisiyaların həcmi sənayedə 2 dəfə (8,7 milyard manat), tikinti də isə 33 dəfə (3,7 milyard manat) artımışdır [10; 11; 12]. Düzdür, sənayedə belə yatırımların əsas əsas hissəsi neft sektoruna düşsə də, lakin qeyri-neft sektorunda da bu sahədə yüksəliş meyilləri özünü göstərməkdədir. Qeyri-neft sektorunda əsas kapitala yönəldilən investisiyaların həcminin artırılması artıq xüsusi zərurətdən irəli gəlməkdədir. Xüsusilə də bu sahədə müasir innovativ avadanlıq və texnologiyaların alınması və onların məqsədli tətbiqi bu sahələrin rəqabətqabiliyyətliliyinin gücləndirilməsinə, yeni məhsul istehsalına əsaslı şəkildə təsir etmiş olcaqdır.

**Sxem 1.**

**İqtisadiyyat sahələrində əsas kapitala yönəldilən investisiyaların payı (2021, %)**




Mənbə Sxem [10; 11; 12] mənbələri əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müasir dövrümüzdə qeyri-neft sektorunun inkişafında davamlılıq amili vacib hesab olunur və bu həm də sahəyə investisiya cəlində də önəmli hesab oluna bilər. Belə ki, hazırki dünya bazarlarında rəqabət qabiliyyətliliyinin real amə çecrilməsini nəzərə alsaq belə yanaşmanın nə qədər vacib olması görünəcəkdir. Qeyri-neft sektorunun inkişafının həm ölkə, həm də qlobal inkişaf maraqlarına yönəldilməsi investisiya təminatında da əsas məqamlardan biri kimi qəbul olunmallıdır. Azərbaycanda sənaye sektorundakı investisiya qoyuluşları üzrə fərqliliklərin tədricən aradan qaldırılmasına ehtiycac vardır. Əsasən də belə yanaşma neft və qeyri-neft sənayesində aydın görünən mənzərə ilə sıx bağlı olmalıdır. Belə ki, hazıradək, neft sektorunda formalaşan daha yüksək investisiya göstəriciləri və bunun təmin edilməsində dövlət dəstəyinin azaldılması ilə bağlı konkret addımlar atılmalıdır. Qeyd olunmalıdır ki, son on ildə mədənçıxarma (neft) sənayesində əsas kapitala yatırılan investisiyaların həcmi 1,9 dəfə artmışdır (6 milyard manat).  Emal sənayesində bu dövrdə həmin göstərici 5 dəfə yüksəlsə də (2,5 milyard manat), lakin o neft sektoru ilə müqayisədə 2,4 dəfə aşağı olmuşdur. Qeyri-neft sektorunun digər saahələri kimi kənd təsərrüfatı, informasiya və rabitə sahələrinə yönəldilən investisiyaların həcmi digər sahələr ilə müqayisədə hələ ki yüksək hesab olunmur. Belə ki, son on ildə investisiya qoyluşları kənd təsərrüfatında 1,3 dəfə (764 milyon manat), rabitə və informasiya sahəsində 2,1 dəfə (442 milyon manat) artması ilə müşahidə edilsə də, lakin bu həmin sahələrin inkişafı üçün qaneedici hesab olunmur [10; 11; 12]. Azərbaycanın iqtisadi rayonları üzrə investisiya qoyluşlarında qeyri-bərabərlik diqqəti cəlb edir. Belə ki, bu sahədə daha çox qeyri-neft sektoru timsalında baxdıqda ciddi regional fərqlər nəzərə çarpır. Həmçinin də əsas problem investisiya yatırımlarında Bakı şəhərinin dah yüksək paya malik olması özünü göstərməkdədir. Müasir dünyada dərinləşməkdə olan regional və qlobal geosiyasi təlatümlər ölkələrin iqtisadiyyatına və investisiya fəallıqlarına da öz təsirlərini göstərməkdədir. Əsasən də son koronavirus pandemiyasının fəasdalrının bitmədiyi hazırki dövrümüzdə Azərbaycanın yüksək investisiya-kredit reytinqini qoruyub saxlaması iqtisadiyyatın investisiya cəlbediciliyi baxımından mühüm əhsəmiyyət kəsb etməkdədir. Azərbaycanın bir sıra ölkələrlə ikiqat vergitutma sahəsindəki maneələri aradan qaldırılması, eyni zamanda investisiyaların təşviqi sahəsində apardığı siyasət də ölkəmizin investisiya mühitinin yaxşılaşdırılmasına təsir edib.

Ölkəmizə xarici investisiyaların cəlbi, həm də ixrac imkanlarının genişləndirilməsi məqsədilə yaradılan instutusional qurumlar da qeyri-neft sektorunun investisiya fəallığının yüksəldilməsi ilə bağlı sil-silə tədbirlər həyata keçirirlər. Xüsusilə də AZPROMO bu sahədə daha geniş fəaliyyəti ilə diqqəti cəlb etməkdədir. O,artıq ölkəmizin investisiya imicinin yaradılması, yerli və xarici investorlara müxtəlif xidmətlərin göstərilməsi, investorların cəlbi, investisiyalar və ixrac imkanları üzrə məlumat bazasının yaradılması, Azərbaycan biznesi üçün regional ticarət (ixrac) imkanlarının araşdırılması, “Azərbaycanda istehsal olunub” (“Made in Azerbaijan”) ticarət nişanının beynəlxalq səviyyədə təbliği kimi mühüm istiqamətlərdə fəaliyyət göstərir [13]. Qeyri-neft sektorunun inkişaf təcürbəsinin öyrəniləsinə ölkəmizdə xüsusi diqqətlə yanaşılmaqdadır. Belə təcürbələrdən biri kimi Koreya Respublikasının əldə etdiyi nailiyyətlər daha çox diqqət mərkəzində saxlanılır. Qeyd edilməlidir ki, hökümət səviyyəsində son on ildə mütəxəssislərimizin Seulda təcrübə keçməsi və qarşılıqlı əməkdaşlıq münasibətlərinin genişləndiirlməsi buna bariz nümunədir. Xüsusilə də biznesin stimullaşdırılması, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, müasir və ənənəvi iqtisadiyyat sahələrinin inkişafı ilə bağlı əldə olunan təcürbənin artıq ölkəmizdə təbiqi məsələləri  gendəmdə dayanmaqdadır. Azərbaycanın 2021-ci il ərzində qeyri-neft sektorunun inkişafı sahəsində əldə etdiyi uğurlar da belə tədbirlərin ölkəmizdə tətbiqi üçün yeni imkanlar

yaratmaqdadır. Belə ki, bu dövrdə qeyri-neft sektoru - 6%, onun ixrac imkanları – 38% artmışdır [13]. Qeyri-neft sektorunun davamlı inkişafı üçün yaradılan mühit də bu sahələrin daxili və xarici investorlar üçün cəlbediciliyini yüksəltməkdədir. Eyni zamanda da torpaqlarımızın işğaldan azad olunması və yaranmaqda olan yeni reallıqlar da iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun innovativ inkişafı üçün daha yeni imkanlar yaratmaqdadır.

**Nəticə**

Azərbaycanda qeyri-neft sektorunun inkişafına son on ildə qayğı daha da artmaqdadır. Bu sahədə həyata keçirilən islhatlar və proqramlar həmçinin qeyri-neft sektorunun investisiya cəlbediciliyinin və fəallığının artırlmasına yönəlmişdir. Qeyri-neft sektorunun inkişafı sahəsində mövcud olan əsas problemlərdən biri də bu saahədə investisiya fəallığının artırılması ilə bağlıdır. Xüsusilə də bu istiqamətdə xarici və daxili investisiya təminatının artırılması xüsusi zərurətdən irəli gəlməkdədir. Tədqiqatlar deməyə əsas verir ki, qeyri-neft sektorunun investisiya cəlbediciliyinin yüksəldilməsi müasir sahələrin inkişafına daha çox yönəlməlidir. Ənənəvi sahələr kimi innovativ sahələrin də investisiya fəallığının artırılmasına yönələn tədbirlərin həyata keçiirlməsi məqsədəuyğun hesab olunmalıdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı, 2022. https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf
2. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 2021. https://e-qanun.az/framework/46813.
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı: - 2016. https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf
4. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı: - 2016. https://mida.gov.az/documents/Kiçik_və_orta_sahibkarlıq_səviyyəsində_istehlak_mallarının_istehsalına_dair.pdf
5. “Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi.” Bakı: - 2016. https://mida.gov.az/documents/_Ağır_senaye_ve_maşınqayırmanın_inkişafına_dair_strateji_yol_xeritesi.pdf
6. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı: – 2016. https://azertag.az/store/files/news/MALIYYE%20STRATEJI%20YOL.pdf
7. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Bakı: – 2014. http://www.e-qanun.az/framework/28964.
8. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı: – 2019. http://www.e-qanun.az/framework/41320
9. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı, 2021. https://www.stat.gov.az/source/system_nat_accounts/.
10. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı, 2021. https://www.stat.gov.az/source/industry/.
11. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı, 2021. /https://www.stat.gov.az/source/finance/
12. Azərbaycan Respublikasının Mərkəzi Bankı. Statistik Bülleten N12. (249). Bakı - 12/2021.https://uploads.cbar.az/assets/acc41ac8a6ec8886355f2366d.pdf.
13. Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO. https://azpromo.az/az/page/ixracat

14. Sadıqov, İ. "Azərbaycan 2020: Gələcəyə Baxış İnkişaf Konsepsiyası və qeyri-neft sektorunun inkişaf zərurəti". Bakı: AMEA-nın Xəbərləri, İqtisadiyyat Seriyası Jurnalı. 2015, №6. s.162-168. http://economics.com.az/images/fotos/xeberler_pdf/2015_6/22.%20İlqar_S.pdf
15. Sadıqov, İ. Qeyri-neft sektoruna investisiya qoyuluşlarının cəlbi səviyyəsi və maliyyələşmə imkanları. Bakı: Azərbaycan Kooperasiya Universiteti, Kooperasiya elmi-praktiki jurnal, №3 (42)-2016. www.aku.edu.az
16. Sadıqov, İ. Müasir şəraitdə qeyri-neft sektorunun investisiya fəallığı və mənbələri // -Bakı: AMEA-nın Xəbərləri,İqtisadiyyat Seriyası Jurnalı. 2016, №-5. s.167-175. http://economics.com.az/images/fotos/xeberler_pdf/2016_5/21.%20Ilqar.pdf
17. Sadıqov, İ. Müasir şəraitdə qeyri-neft sektorunun təşkili və tənzimlənmə sistemi. Bakı: Azərbaycan Kooperasiya Universiteti, Kooperasiya elmi-praktiki jurnal, - 2019. №2. www.aku.edu.az.
18. Садыгов, И.В. Особенности современного развития ненефтяного сектора в Азербайжанской Республике. Москва: Экономика и Предпринимательство, – 2017. № 5 (ч.2). с. 347-351 www.intereconom.com.
19. Доклад о мировых инвестициях 2021. Организация Объединенных Наций. Женева, 2021 год. https://unctad.org/system/files/official-document/wir2021_overview_ru.pdf
20. Статистическая база данных World Bank. https://data.worldbank.org/indicator/BN.CAB.XOKA.GD.ZS?locations=AZ&start=2013
21. Статистическая база данных IMF. https://www.imf.org/external/datamapper/NGDP_RPCH@WEO/OEMDC/ADVEC/WEOWORLD
22. Статистическая база данных IMF. http://data.imf.org/regular.aspx?key=61227426
23. Статистическая база данных UNCTAD Country Fact Sheets 2019. https://unctad.org/en/Pages/DIAE/World%20Investment%20Report/Country-FactSheets.aspx
24. World Bank Group Flagship Report. Global Economic Prospects: The Turning of the Tide? Washington. World Bank Group. official website. – June 2018. https://openknowledge.worldbank.org/bitstream/handle/10986/29801/9781464812576.pdf?sequence=8
25. World Investment Report 2019: Special Economic Zones. UNCTAD : official website. https://unctad.org/en/PublicationsLibrary/wir2019_en.pdf

***Ильгар Вагиф оглы Садыков***
***доктор философии по экономике***
***Бакинский Государственный Университет, преподаватель***
***E-mail: sadigov.ilgar1975@gmail.com***

***Инвестиционная привлекательность ненефтяного сектора в Азербайджане***

***Резюме***

*Цель исследования-развитие ненефтяного сектора и определение его инвестиционной привлекательности. В статье оцениваются проводимые в стране реформы и их результаты, связанные с развитием ненефтяного сектора. В качестве методологии исследования были взяты принятые правовые и стратегические документы, в основном касающиеся развития ненефтяного сектора. Результаты исследования могут сыграть важную роль в определении современного и перспективного развития ненефтяного сектора. Оригинальность исследования заключается в том, что вопросы развития ненефтяного сектора и инвестиционной привлекательности рассматривались с учетом современных требований и в связи с этим были выдвинуты идеи.*

***Ключевые слова****: ненефтяной сектор, перерабатывающая и горнодобывающая промышленность, стратегические документы, инвестиционная привлекательность*

***Ilgar Vagif Sadigov***
***doctor of philosophy in economics***
***Baku State University, teacher***
***E-mail: sadigov.ilgar1975@gmail.com***

***Investment attractiveness of the non-oil sector in Azerbaijan***

***Summary***

*The purpose of the study is to develop the non - oil sector and determine its investment attractiveness. The country's activities related to the development of the non-oil sector and its results were evaluated in the article. As the methodology of the research, the legal and strategic documents adopted mainly on the development of the non-oil sector were taken. The results of the study can play an important role in determining the modern and promising development of the non-oil sector. The originality of the study is that the development of the non-oil sector and the issues of investment attractiveness were considered taking into account modern requirements and opinions were put forward in this regard.*

***Keywords:*** *non-oil sector, refining and mining industry, strategic documents, investment attractiveness*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 20.12.2022.***
***Çapa qəbul olunub: 28.12.2022.***